Ədalət.-2019.-30 mart.-S.12.



# HƏSRƏT HEKAYƏSİ

**...Onun "görüşünə" tələsirdim. Gənclik illərindən musiqilərini sevə-sevə dinlədiyim, hər sətrindən minbir xəyal dünyası qurduğum insanın "görüşünə"...**

...Deyirlər, hər kəs sənətinə, peşəsinə vurğun olduğu, fərqi yox - istər aktyor olsun, istər həkim, istərsə də müğənni - uca zirvədə gördüyü insanla nə zamansa qarşılaşmaq, ünsiyyətdə olmaq xülyasıyla yaşayır... Mən də əsrarəngiz musiqilərinin, qəlb oxşayan bəstələrinin yüzlərcə vurğunu kimi, hər zaman dinlədim onu və nə vaxtsa üzbəüz oturub, "sizi pərəstişkarlarınıza sevdirmənizin sirri nədir?" sualına cavab almaq istəyilə, ümidiylə yaşadım...




...Hələ tələbə ikən müəllim "xarici ölkə müğənnilərindən tərzini və mahnılarını bəyəndiyiniz biri haqqında məqalə yazın" demişdi. O zaman "İçimdən gəldiyi kimi" musiqilərinə heyran olduğum, mahnılarını bəyənib dinlədiyim müğənninin adını söyləmiş, onunla canlı görüşmək, həmsöhbət olmaq istəyimi bildirmişdim. Amma əfsuslar olsun ki, müğənni Türkiyədə yaşadığından və mənim onunla görüşəcəyimin qeyri-mümkün olduğundan heyfslənmişdim. Bu ümidsizliyi də həsrət qaldığım, həyata keçməyən "Könül səhifəm'in bir kənarına yazmışdım... İllər "Rüzgar kimi keçdi", bilmədim. Qürbətdə yaşadığım günlərdə illər öncə gerçəkləşdirə bilmədiyim o arzumun sanki bir addımındaymışam kimi

### *"Əmin ettim" "Yoxsan sən"...*

Bir gün İstanbulda, "Qürbətdə axşam" saatlarında eşitdiyim acı xəbər "Hər şeydən çox" sarsıtdı məni. Xəyallarım, düşüncələrim, arzularım dondu. Türkiyənin sevilən pop müğənnisi, bəstəkarı Kayahan 66 yaşında uzun sürən ağır xəstəlikdən sonra xəstəxanada dünyasını dəyişmişdi. O gün 3 aprel 2015-ci il idi...

### *Cavabsız suallar*

... Yolboyu ağlımda "ona" cavabını ala bilməyəcəyim o qədər saysız-hesabsız suallarım vardı ki... Bunları düşündükcə "Canım sıxılır"dı... İlahi, həyatda "Nələr olur, nələr". Allahın qismətinə, yazısına bax. Onunla "görüşmək" şansi verdi mənə. Amma...

### *Kanlıcaya gedən yol*

Dedilər mərhum müğənni Kayahanın qəbri Kanlıca məzarlığındadır. Kanlıca İstanbulun Anadolu hissəsində yerləşən bir qəsəbədir. Məzarlığa gedən yol uzun olduğundan, xəyallar məni keçmişlərə götürürdü. Elə hey özüm-özümə suallar verirdim:

### *Kimdi Kayahan?*

Türk musiqi aləmində unudulmaz əsərlərilə tanınan Kayahan Açar 29 mart 1949-cu ildə İzmirdə anadan olmuşdur. Uşaqlıq və gənclik illərini Ankarada keçirən müğənni, sonradan İstanbulda yaşamışdır. Amma buna baxmayaraq, uzun müddət yaşadığı Balıkəsir-Gömeç kəndini və oranın adamlarını çox sevdiyini qürurla söylərmiş. Hətta, bu sevgilə "Mən Anadolu uşağıyam" deyib, "Gömeç"i notlara da çevirmişdi. Orada yaşayan Kayahan pərəstişkarları da onun mahnılarını həvəslə dinləyərdilər. Bəlkə ele bu istəyin təzahürüdür ki, Gömeçin küçə və məhəllələrinin çoxuna Kayahanın mahnılarının adı verilmişdi.

Maraqlı bir cəhət isə Kayahanın yaradıcılığı boyu yazdığı şeirlərə bəstələdiyi mahnıları, elə özünün oxumasıydı. Hətta, bu barədə bir dəfə ona sual verəndə "mən öyrənə bildiyim şeyləri dinləyirəm. Öyrəndiklərimi unudacaq şeyləri dinləmirəm" deyən müğənni, bəstələdiyi mahnıların başqa türk müqənniləri tərəfindən də ifa olunmasından qürur hissi duyurdu.

Həyatı boyu sevdi, sevildi Kayahan. Ailəsinə, qızlarına, minlərcə pərəstişkarlarına sevgisi bitib-tükənmədi.

### *"Sevənləri ayırmayın, sevənlər ayrılmayın!"*

deyirdi. Yazdığı şeirlərin, bəstələdiyi mahnıların esas motivi də elə sevgi, məhəbbət oldu. Bəzən "Gecələr" "Otaqlarda işıqsızam " deyib, "böyük acılar və böyük sevinclər insana şeir yazdırır" fikrilə neçə-neçə şeirlər yazdı könül dəftərinə Bəlkə elə sevgi dolu "Bir eşq hekayəsi" də ürək çırpıntılarının bir parçası kimi o qəlbin sakini idi...

Yüzlərlə mahnının sözlərini yazdı, musiqilər bəstələdi.



Onlarca musiqi yarışmalarında ölkəsini təmsil etdi, mükafatlara layiq görüldü. Ondan "mükafatlarınızın sayı nə qədərdi?" soruşanda, cavab verərdi ki, insan nə qədər çox yaşayarsa, bir o qədər mükafat ala bilir. Bəlkə o zaman başqa bir şey də düşünmüşdü. Amansız xəstəliyin qapısını kəsdiyini anlayıb, bəlkə də bunlar mənim

### *"Son mahnılarım"*

olacaq, deyərək köks ötürmüşdü. Bəlkə də...

### *Fərqli məzar*

...Məzarı önündə donub qalmışam. "Görüşünə" tələsdiyim, içimi parçalayan minbir sualın cavabsız qaldığı məkan. Həyat tərzi, mahnıları kimi, məzarı da fərqliydi Kayahanın.

Ömrünün son 22 ilini birgə keçirən və bu məzarın onun vəsiyyətinə, xatirəsinə rəğmən inşa etdirən həyat yoldaşı İpək Açar xatırlayır ki, Kayahan hər zaman "qəbrimin üstündə gitaramın olmasını istərdim" deyərmiş. İstəyi yerinə yetmiş kimi qara mərmərlə döşənmiş qəbrin bir tərəfində Kayahanın heç zaman əlindən düşməyən, sanki həsrətini çəkən gitarası, digər tərəfdə isə notlar üzərində məşhur bir deyimi yer alırdı:

### *"Yolu sevgidən keçən hər kəslə bir gün bir yerde görüşəcəyik..."*

Məzarın önündə İstanbulun Boğazı görünürdü. Kayahanın son arzularından biri idi - məni dəniz kənarında dəfn edərsiniz,

"Hər zaman dənizə baxım" - deyə.

Son arzun da yerinə yetdi, əfsanəvi, unudulmaz sənətkar - mənim illərlə xəyalımda qurduğum "arzularım" kimi. "Allahım, nəydi günahım?" deyə bilmədim.

O səsin, sənətin vurğunu olan, sağlığında görüşünə yetişəməyəcəyim, yoxluğunda isə məzarı önündə həsrətini çəkdiyi milyonlarla sevənlərindən biri kimi, susdum və dənizə baxdım.

...Yaşasaydı bəlkə də anladacaq çox şeyi, söyləyəcək çox sözü vardı.

Bəlkə də...

**Ömür vəfa etsəydi bu bahar 70 yaşını qeyd edəcəkdi - ailəsi, sevdikləri, sevənləri ilə bərabər. Ölümünü qəbul edib, amma hələ də sevənlərinin həsrət çırağını söndürməyən unudulmaz sənətkar, qəbrin nurla dolsun. Allah rəhmət etsin! Amin!**

**Nəcibə ƏZİZQIZI**
**İstanbul**